MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

MÜNDƏRİCAT

ÖN SÖZ 6

QEYRİ-MADDİ MƏDƏNİ İRS ANLAYIŞI – MƏDƏNİYYƏTİMİZİN DÜNYADA DANIŞAN DİLİ
Şikar Qasımov 7

AZƏRBAYCANIN İRS NÜMUNƏLƏRİ YUNESKO-NUN
QEYRİ-MADDİ MƏDƏNİ İRS SİYAHISINDA
Məleykə Hüseynova 15

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ
Şikar Qasımov 20

MUĞAMIN TARİXİ VƏ MİLLİ KİMLİKDƏ ROLU (ARXEOLOJİ MATERİALLAR ƏSASINDA)
Kübra Əliyeva 30

MUSİQİNİN FƏLSƏFİ DƏYƏRİ
Elmira Abasova 39

TAR ALƏTİNİN YARANMA TARİXİ, FORMALAŞMASI VƏ İFAÇILIQ SƏNƏTİ
Səxavət Məmmədov 50

KAMANÇA ALƏTİNİN YARANMA TARİXİ, İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ
İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ
Toğrul Əsədullayev 54

"DƏDƏ QORQUD" DASTANI İSLAMİ QAYNAQ KİMİ
Aybəniz Rəhimova 58

POSTMODERN AZƏRBAYCAN ROMANINDA "DƏDƏ QORQUD" DASTANI VƏ
TƏHRİF EDİLMİŞ TARİX
Şəmil Sadıqov 63

AŞIQ, XANƏNDƏLİK VƏ MUĞAM SƏNƏTİNİN AZƏRBAYCAN XALQ YARADICILIĞININ
TƏBLİĞİNDƏ ROLU
Şikar Qasımov 69

OZAN-AŞIQ SƏNƏTİNİN TARİXİ-MƏDƏNİ SƏCİYYƏSİ
Hafiz Kərimov 80

AZƏRBAYCANIN AŞIQ SƏNƏTİ VƏ QADIN AŞIQLARI ƏZİZƏ CƏFƏRZADƏ
YARADICILIĞINDA
Fərqanə Zülfiqarova 87

ŞİFAHİ YUMOR VƏ SÖZ MƏDƏNİYYƏTİ: LƏTİFƏLƏRİN MAARİFLƏNDİRİCİ VƏ
SATİRİK FUNKSİYASI
Lətafət Əliyeva 91

AŞIQ, XANƏNDƏLİK VƏ MUĞAM SƏNƏTİNİN AZƏRBAYCAN XALQ YARADICILIĞININ TƏBLİĞİNDƏ ROLU

Şikar Qasımov
tarix elimlər doktoru, professor
Bakı Mühəndislik Universiteti
https://doi.org/10.30546/19023.2026.1001.238

Giriş. Azərbaycanın musiqi mədəniyyətinin inkişafında xalq yaradlcılığı, aşıq və xanəndəlik sənəti əsas rol oynayan sahələrdəndir. Belə ki, XIII - XIV əsrlərdən təşəkkül tapan aşıq sənəti əslində qədim ozan sənətinin davamı və varisidir. Ozan sənəti Azərbaycan xalqının soykökündə və təşəkkülündə başlıca rol oynamış oğuz qəbilə birləşmələrinin geniş yayılmış incəsənəti olmuşdur. Öz bağları ilə çox qədim köklərə, zəngin mifik və əsatiri təsəvvürlərə malik olan ozanlar orta əsrlərin mühafizəkar dini ideologiyası qarşısında uzun müddət müqavimət göstərsələr də, Dədə Qorqud ənənələrini qoruya bilməyib və tədricən öz meydanlarını aşığa vermişlər. Getdikcə saz-söz ustadları yazılı ədəbiyyatın klassikləri ilə eyni səviyyədə dayanan sənətkarlar olmuşlar.

Aşıq sənəti çoxtərəfli xarakter daşıyır. Burada musiqi, poeziya, təhkiyə, rəqs, pantomima, teatr sənəti elementləri üzvi şəkildə birləşmişdir. Yəni aşıq yaradıcı, ifaçı, pedaqoji əsasları özündə birləşdirir. Bu cəhətləri özündə cəmləşdirən və şagirdlər yetişdirən sənətkarlara "ustad aşıqlar" deyilir. Sənətkarlıq xüsusiyyətlərinə görə aşıqlar ustad aşıqlar, ifaçı aşıqlar və şair aşıqlar adı ilə üç yerə bölünür:

1.Ustad aşıqlar – saz-söz sənətinin ən parlaq şəxsiyyətləri kimi özündə şairlik, bəstəkarlıq istedadı, kamil müğənni, çalğıçı, aktyor, rəqsetmə bacarığını, ən başlıcası təcrübəli və müdrik ustadlığı (müəllimliyi) üzvi olaraq birləşdirir,

2.İfaçı aşıqlar – qədim saz-söz ənənələrini yaşadan və onu xalq arasında yayan sənət ustalarıdırlar. Azərbaycan xalq yaradıcılığının qorunmasında və təbliğində onların böyük xidmətləri var,

3.Şair aşıqlar – el şairləri, aşıq sənətinin şeir nümunələrini yaradan, xalq şeirinin inkişafında xidməti olan söz ustadlarıdırlar. Göründüyü kimi Aşıqlar ifa etdikləri əsərlə kifayətlənməyərək, həm də ona yeni çalarlar gətirir və onu təkmilləşdirirlər. Beləliklə də ifa etdikləri əsərin yaradıcı-larından birinə çevrilirlər.

Aşıq yaradıcılığının əsas janrları dastanlar və aşıq havalarıdır. Ənənəvi klassik aşıq havaları bayatı, gəraylı, qoşma, müxəmməs, divani, təcnis və b. poetik formalara əsaslanır. Aşıq havalarının 72-dən 80-nə qədər ("Ruhani", "Kərəmi", "Əfşarı", "Misri", "Dilqəmi", "Yanıq Kərəmi" və s.) ayrı-ayrı ərazi variantları mövcuddur. Qeyd etdiyimiz kimi dastan aşıq sənətinin əsas janrıdır. Çoxhissəli ədəbi-bədii musiqili əsər olan dastanda şeir, nəsr və musiqi ardıcıl olur. Aşıq yaradıcılığının kiçik formaları dastana daxil olub, onun tərkib hissəsini təşkil edir. Dastanlar mövzu etibarilə müxtəlifdir: Bunlardan qəhrəmanlıq xarakteri daşıyan "Dədə Qorqud", "Koroğlu", "Səttərxan", "Qaçaq Nəbi", lirik-romantik və məhəbbət xarkteri daşıyanlardan "Şah İsmayıl", "Aşıq Qərib", "Əsli və Kərəm" dastanlarını misal göstərmək olar.

Aşıqların əsas musiqi aləti sazdır. Aşıq musiqisinin melodiya və forma xüsusiyyətləri sazın köklənməsi ilə bağlıdır. Aşıq havalarında musiqi ilə poetik mətnin qarşılıqlı əlaqəsi onların melodik-ritmik, forma xüsusiyyətlərinın yaranmasma yaxşı təsir göstərir. Aşıq poeziyasının vəzni hecadır. Havaların quruluşu şeirin forma və heca tərkibi, bölgü xüsusiyyətləri ilə əlaqədə yaranırdı. Keçən əsrlərdə Azərbaycanın ədəbiyyatında əsas yer tutan aşıqlardan - XVI əsrdə Qurbanini, XVII əsrdə Abbas Tufarqanlını, Sarı Aşıqı, XVIII əsrdə Xəstə Qasımı, Aşıq Valehi, Aşıq Dilqəmi, XIX əsrdə Aşıq Alını, Aşıq Ələsgəri, Aşıq Hüseyn Bozalqanlını göstərmək olar. Peşəkar aşıqlar arasında, həmçinin

XIX əsrdə tanınmış qadın aşıqlarından - Aşıq Pərini, Aşıq Həmayılı, Aşıq Bəstini, XX əsrdə Aşıq Dilşadı və başqalarını göstərmək olar. Deyilənə görə bunlar içərisində Aşıq Bəsti xüsusilə məşhur olmuşdu.

XX əsrdə aşıqları arasında Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əsəd, Aşıq Mirzə, Aşıq İslam, Aşıq Şəmşir, Hüseyn Saraclı, Əmrah Gülməmmədov, Hüseyn Cavan. Aşıq Kamandar, İmran Həsənov, Mikayıl Azaflı, Əkbər Cəfərov, Ədalət Nəsibov və b. xüsusilə fərqlənmişlər. Aşıq sənəti Azərbaycanın Qazax, Tovuz, Şamaxı rayonlarında, həmçinin tarixi Göyçə və Borçalı mahallarında xüsusilə vüsət tapmışdır. Aşıq şeiri keçən əsrlərdə şifahi və yazılı ədəbiyyatın yeni zirvəyə qalxmasına güclü təkan vermişdir. Qədim Ağqoyunlular nəsli olan Göyçə diyarında böyük bir aşıq nəsli - aşıq məktəbi şöhrətlənmişdi. Şair Məmmədhüseyn, Aşıq Alı, Aşıq Musa, Mirzə Bəylər, Şair Hacı Əliş ağa, Aşıq Əziz, Aşıq Əhməd, Aşıq Məhərrəm, Şişqayalı Aydın və onlarca bu kimi sənətkarların timsalında böyük saz-söz sərrafı Aşıq Ələsgər kamala çatmışdır. XIX əsrin aşıq məktəblərini təkcə Göyçə diyarı təmsil etmirdi. Şəmkir mahalında Aşıq Hüseyn, Aşıq Qasım, Yəhya bəy Dilqəm, Qaradağda Aşıq Mahmud, Aşıq Valeh, Aşıq Abbasqulu, Aşıq Camal, Şirvanda Cəfərqulu, Kəlbəcərdə Aşıq Qurban, Qazaxda Aşıq Səməd, Masazırda Aşıq Həsən, Bakıda Aşıq Cavad, Samurda Aşıq Rəcəb, Cəbrayılda Bağban, Şəkidə Molla Cümə, Borçalıda Şenlik, İbrahim kimi ustad sənətkarlar məşhur olmuşlar. Bu sənətkarların yaradıcılığında həm qədim aşıq sənəti ənənələri inkişaf etdirilmiş, həm də ictimai-siyasi mühitin mühüm hadisələri, həyati faktlar öz əksini tapmış, gerçəklik realist boyalarla canlandırılmışdı. Bu da aşığa xalq arasında rəğbət yaratmışdı. Milli mətbuatımızın qurucusu Həsən bəy Zərdabi hələ 1875-ci ildə, "Əkinçi" qəzetinin ilk saylarından birində aşığa xalqın məhəbbət və rəğbətini belə ifadə etmişdi ki, "Bir baxın, bizim aşıqlar toylarda oxuyanda onlara qulaq asanlara. Bu zaman bu qulaq asanlar elə hala gəlirlər ki, ətini kəssən də xəbəri olmaz" [12].

Aşıq sənəti elə bir zəngin sənətdir ki, o bir neçə peşəni özündə birləşdirir. Saz ifa edən hər kəs özündə musiqiçi, müğənni və aktyor peşələrini təcəssüm etdirməlidir. Belə ki, aşıq şeir yazır, musiqi bəstələyir, həm də oxuyaraq sazda çalır və rəqs edir. Onu çox vaxt balaban və nəfəsli alətlər ansamblı da müşayiət edir. Lakin aşığın əsas musiqi aləti sazdır. Saz qədim Azərbaycan simli musiqi alətidir. İlk dəfə aşıq musiqisinin xüsusiyyətlərindən bəstəkar Üzeyir Hacıbəyli "Koroğlu" operasında istifadə etmişdir. Bu barədə SSR-i xalq artisti Bülbül çox yaxşı yazmışdı: "...Aşıq sənəti xalqın bütün təbəqələrini əhatə edərək, xalqımızın nəcib duyğularını, vətənimizin təbii gözəlliyini, hayatın rəngarəng lövhələrini şerdə, sözdə, vəzndə, səsdə, çalğıda ilbə-il artırmış, bütün gözəlliyi və məlahəti ilə bizə çatdırmışdır" [13, s. 195].

Aşıq sənəti Azərbaycanın Qazax, Tovuz, Şamaxı, Gədəbəy, Laçın, Kəlbəcər rayonlarında, həmçinin tarixi Göyçə və Borçalı mahallarında xüsusilə vüsət tapmışdır. Aparılan araşdırmalar və keçilən yol bir daha göstərir ki, Azərbaycan milli musiqisi xalq yaradıcılığı, xanəndəlik sənəti və aşıq yaradıcılığı vasitəsi ilə inkişaf etmişdir. Bu zənginliyi və qədimliyi ilə seçilən üç yaradıcılıq sahəsi daima bir-birini tamamlamış, milli musiqimizi zənginləşdirmiş və eyni zamanda hər biri özünəməxsusluğunu - orijinallığını qoruyub saxlamışdı. Bu baxımdan Aşıq sənəti daha qədim və çoxşaxəlidir. O öz ədəbi gücünü xalqdan, xalqın yaratdığı bayatılardan, nağıllardan, laylalardan, şeirlərdən və s. alır. Buradan da görünür ki, xanəndəlik sənəti kimi aşıq yaradıcılığı da Azərbaycan milli musiqisinin əsas qida mənbələrindən biri olmuşdur. Hər iki sahənin bəhrələndiyi mənbə isə xalq yaradıcılığı olmuşdu.

Aşıqlar hələ qədim zamanlardan kəndlərdə çalıb-oxuduqlarına görə onlar öz yaradıcılıqlarında da kənddə yaşayanların mənəvi aləmini vəsf etmişlər. Aşıq sənəti fərdi yaradıcılıq olmasına baxmayaraq həm də qeyd olunduğu kimi çoxşaxəlidir. Yəni onlar özləri çalır, özləri oxuyur, şer deyir, oynayır və həm də özlərini müşayiət edirlər. Buna görə də aşıqlar istənilən yerdə xüsusi dəvət olunmadan məclis qura bilirlər. Aşığın üzünə həmişə qapılar açıq olubdur. Bu baxımdan aşıq hər-hansı kənddə bir xoşməramlı yığıncaq, toy, düyün görən kimi sazını götürüb, həmin bölgənin adətlərinə uyğun olaraq

nağıl, dastan başlayıb və oxuya bilir. Elə buna görə də el arasında deyilir: "Aşığın sazı çiynində, sözü qəlbində və boğazındadır".

Qeyd olunduğu kimi aşıqlar əsasən qədim zamanlardan kənd toylarında çıxış ediblər. Amma məlumdur ki, XIX əsrin sonlarından kənd toylarına xanəndə dəstələri də dəvət edilirmiş. Artıq bu toylarda həm xanəndə, həm də aşıq dəstələri çıxış edirmişlər. Lakin getdikcə xanəndələrin də kənd toylarına dəvət olunması, tədricən aşıq dəstələrini sıxışdırır. Bunu da qeyd etmək lazımdır ki, xanəndələr yalnız dəvət olunan yerlərə gedə bilərdilər. Çünki, xanəndə tarın, kamançanın müşayiəti olmadan məclis qurub oxuya bilmirdilər. Bunları şərh etməkdə əsas məqsədimiz milli musiqi sənətinin və xalq yaradıcılığının inkişafında aşıq sənətinin rolunu işıqlandırmaq, xanəndəlik sənəti ilə fərqli və uyğun tərəfləri aşkarlamaqdır. Maraqlı burasıdır ki, aşıq və xanəndəlik sənəti tarix boyu bir-biri ilə çox yaxın əlaqədə inkişaf etmişdir. Amma əsas fərq ondadır ki, aşıqlar bütün fəaliyyətləri boyu xalq yaradıcılığından bəhrə-lənmişlər. Buna görə də onlar, daima xalqla birgə inkişaf etmişlər. Xanəndələr isə aşıq havalarını öz oxumalarına uyğunlaşdırmış və muğamı zənginləşdirmişlər. Eyni ilə də Gəncə-Qazax, Qarabağ və Şirvan aşıqları məşhur xanəndələrdən Qaryağdı oğlu Cabbarın, Mirzə Məhəmməd Həsənin zəngulələrini aşıq sənətinə gətirmişlər. Aşıq¬ların bir çoxu xanəndə guşələri və xalları hesabına aşıq sənətini zəngin¬ləşdirmişlər. Milli musiqi-mizin inkişafının əsas səbəbkarları olan bu iki sənət tarix boyu məclislərimizin yaraşığı və bəzəyi olmuşdur. Xalq həmişə onlara hörmətlə yanaşmış və məclislərinin başında əyləşdirmişdir. Təsadüfi deyildi ki, el içərisində aşıqlara ən xoş sözlər deyilmişdir. Azərbaycan aşıq sənəti tarixində qədim ustad aşıqlardan - Tufarqanlı Abbasın, Qurbaninin, Xəstə Qasımın, Aşıq Valehin, Pərinin, Ələsgərin, Nəcəfqulunun və Abbasqulunun adları bu gün də böyük hörmətlə çəkilir.

Klassik xanəndələrdən Hacı Hüsü, Məşədi İsi, Mirzə Məhəmməd Həsən, Cabbar Qaryağdı oğlu, Segah İslam, Seyid Şuşinski və Bülbül muğamatı genişləndirmək üçün aşıq və xalq mahnılarını muğamata daxil etmişlər. Məsələn, "Arazbarı", "Şikəstə", "Bayatı", "Kürd-ovşarı", "Kəsmə şikəstə", "Şirvan şikəstəsi" və buna bənzər aşıq musiqisi nümunələrini zildə oxumaqla, muğamata aşılayaraq onu zənginləşdirmişlər.

Aşıqlar öz yaradıcılıqlarını inkişaf etdirmək üçün "Sarəng", "Şikəsteyi-fars", "Qatar-bayatı", "Bayatı-Qacar", "Kürdi-Şahnaz", "Bayatı-Əcəm" kimi muğam nümunələrindən istifadə etmişlər. Aşıqlardan muğam musiqisinə daha yaxın olan və yaradıcılığında muğamata daha çox müraciət edən Aşıq Abbasqulu olmuşdur. O, görkəmli bir muğam ifaçısı kimi də şöhrət qazanmışdır. O, 1850-ci ildə Ağdamın Gülablı kəndində anadan olmuşdur. Hansı ki, Valeh, Qəmbər, Nəcəfqulu kimi nəinki Qarabağda, bütün Azərbaycanda məşhur olan aşıqlar da bu kənddə anadan olmuşlar. Aşıq Abbasqulu həm də Aşıq Valehin nəvəsidir. O, heç bir məktəb, mədrəsə oxumamışdır. Lakin çox gəzmiş, məclislərdə, el şənliklərində iştirak etmiş, aşıqların çalıb-çağırmasını eşitmiş və mahnılarını öyrənmişdir.

Abbasqulu Aşıq Nəcəfqulunun dəstəsinə qoşulmuş, əvvəlcə qoşanağara çalmış və bir müddət dəmkeşlik etmişdir. Ancaq onun arzusu saz çalmaq, el aşığı olmaq idi. Buna görə də tezliklə saz çalmağı, oxuyub-yazmağı oyrənir və Aşıq Həsənin dəstəsinə qoşulur. O, Vaqif, Valeh, Zakir kimi sənətkarların gəraylı, qoşma və müxəmməslərini oxuyarmış. Bədahətən söz deyib, qoşmalar qoşarmış. Aşığın həyatında Aşıq Ələsgərlə Gülablıda görüşü böyük iz buraxmışdı. Aşıq Ələsgər əlini gənc– 20 yaşlı aşığın çiyninə qoyub oğul mən Aşıq Valehin vətə¬nindəyəm. Ona görə də Valehin "Vücudnaməsini" oxusan mənə daha xoş gələr [14, s. 97] deməsi, sonra isə Aşıq Nəcəfqulunun əvəzsiz çalğısı məni məftun etdi və bunların qədrini bilin sözləri, bütün Qarabağa yayılmışdı. Bundan sonra Abbasqulunun şöhrəti günü-gündən artmışdı. O bir müddət böyük tarzən Sadıq¬canın ansamblında çalışır. Şərq muğamlarının sirlərini öyrənir. Aşıq Ələsgərlə görüşündən sonra Sadıqcanla tanışlığı da onun bir sənətkar kimi formalaşmasında əsas rol oynamışdı. XIX əsrin ikinci yarısında

Sadıqcanın ansamblı bütün Qafqazda məşhur idi. Abbasqulu ansamblın tərkibində Cənubi Qafqazın iri şəhərlərini gəzir. Tiflis şəhərində Sadıqcanın dəfələrlə verdiyi konsertlərdə yaxından iştirak edir və tamaşaçıların məhəbbətini qazanır. Aşıq Abbasqulu, Hacı Hüsü, Məşədi İsi, Bülbülcan, Cabbar Qaryağdı oğlu, Dəli İsmayıl bəy, Şahsənəm oğlu Yusif kimi böyük sənətkarlarla tanış olur. Sadıqcan ilə birlikdə dəfələrlə Xanqızı Xurşidbanu Bəyim Natəvanın sarayında qurulan məclislərdə çalıb-oxuyur. Xanqızı onu "Məclisi-üns" ədəbi məclisinin yığıncağında iştirak etməyə dəvət edir. Məclisdə Abbasqulu aşıq Valehin "Dünya əhvalatı" müxəmməsini oxuyur. Sonra Xanqızı Abbasqulunu yanına çağırtdırır və deyir: Abbasqulu, sənin həm çalmağın, həm də oxuyub-oynamağın mənim çox xoşuma gəldi. Amma serləri düzgün oxuyub tələffüz edə bilmirsən. Bunları öyrən. Yaxşı sənətkar hər şeydən əvvəl, şeri, ədəbiyyatı kamil bilməlidir. Bundan sonra özü üzərində çalışır, Zakirin, Ələsgərin şerlərini əzbərləyib Xanqızının məclisində oxuyur. Bu Xanqızının xoşuna gəlir, özünün bir neçə qəzəlini Abbasquluya verir. O isə bu qəzəlləri Şuşa məclislərində muğam üstə oxuyurmuş [14, s. 99].

Göründüyü kimi Şuşanın musiqi həyatı, Xanqızının ədəbi məclisi və görkəmli sənətkarlarla ünsiyyət Abbasqulunun sözün həqiqi mənasında kamil bir aşıq kimi formalaşmasında həlledici rol oynamışdı. Aşıq Abbasqulu çox yaxşı zəngulə vurur, yerli-yerində muğam xalları işlədərmiş. Ona görə ki, Abbasqulu Cabbar Qaryağdı oğlu, Şəkili Ələsgər və Xan Şuşinski kimi xanəndələrlə uzun illər birlikdə toy məclislərində, "Şərq konsertləri"ndə və teatr tamaşalarında iştirak etdiyindən xanəndəliyin guşə və xallarına dərindən bələd olmuşdu. "Misri", "Qəhrəmanı", "İrəvan çuxuru", "Koroğlu" havalarını oxuyarkən gözəl, ardıcıl zəngulələr vurmağı hamını heyran edərmiş. O, həmin zəngulələri aşıq sənəti ilə üzvü surətdə əlaqələndirib onları aşıq səsinə, aşıq formasına qovuşdurub zənginləşdirirmişdi.

Xanəndələr zənguləni muğamın ortasında, çox vaxt isə axırlarında işlədirlər. Aşıqlar isə müəyyən havanı başlayarkən və ya qurtararkən həzin zəngulələr vurmaqla oxuduqları havanı bəzəyib onu daha da zənginləşdirərək dinləyiciyə çatdırırlar. Aşıq Abbasqulu da klassik aşıqlar kimi xanəndə havalarında işlədilən zəngulələri aşıq səsinə, aşıq üsullarına gətirərək, onu yeni çalarlarla təkmilləşdirmişdi. Getdikcə Aşıq Abbasqulunun ifaçılıq məharəti artır. O, Sadıqcandan tar çalmağı öyrənir. Deyilənə görə bəzi məclislərdə muğam oxuyanda saz ilə yox, tarın müşayiəti ilə özü çalıb, özü də oxuyarmış. Onun milli ruhda oynadığı "Tərəkəmə" və "Qafqaz qaytağısı"na tamaşa edənlər doymurmuşlar. Tiflisdə verdiyi konsertlər xüsusilə çox rəğbətlə qarşılanırmış.

Aşıq sənətinin inkişafında və Xalq yaradıcılığının təbliğində XX əsrin əvvəlindən başlayaraq Şuşada və sonra da Bakıda təşkil olunan "Şərq konsertləri" və konsertlərdə aşıqların iştirakının mühüm rolu olmuşdu. Çox vaxtı bu konsertlərdə tarzən Qurban Primov, xanəndə Cabbar Qaryağdı, Mirbabayev, bəzən də sazçılar triosu çıxış edirmişlər. İlk "Şərq konserti"ni Şuşada 1901-ci ilin yayında Ə.B.Haqverdiyev təşkil etmişdi [14, s. 100]. Konsertdə aşıq Abbasqulu və aşıq Nəcəfqulu birlikdə iştirak etmişlər. Bakıda 1902-ci ilin yanvarında keçirilmiş birinci "Şərq konserti"ndə Gülablı aşıqları da iştirak etmişlər. Aşıqlar dəstəsinə Qarabağda məşhur olan Aşıq Nəcəfqulu rəhbərlik edirmiş. Tamaşaçılar Nəcəfqulunun neydə insanı vəcdə gətirən çalğısından və Abbasqulunun təmiz və qüvvəli səsindən məftun olmuşlar [9]. Bundan sonra yanvarın 23-də Bakıda yeni "Şərq konserti" keçirilir. Bu konsertdə də Gülablı aşıqları xüsusilə seçilmişlər. Konsertin sonunda Cabbar Qaryağdı oğlu, Şəkili Ələsgər, Keçəçi oğlu Məhəmməd, Zabul Qasım və Aşıq Abbasqulu birlikdə "Qarabağ şikəstəsi" oxumuşlar [10].

1907-ci ildən başlayaraq, keçirilən "Şərq konsertləri"nin davamı olaraq "Şərq gecələri" keçirilməyə başlanmışdı. Bu gecələrin proqramı konsertlərə nisbətən bir qədər geniş olurdu. İllər keçdtkcə "Şərq gecələri" məzmunca dəyişilmiş, gecələrdə həm "Şərq konserti", həm də kiçik həcmli teatr tamaşaları göstərilirmiş və sonda isə rəqs təşkil olunurmuş. İlk "Şərq gecəsi" Bakıda 1907-ci ilin yanvar ayının 20-də "Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən, ikinci "Şərq gecəsi" isə 1915-ci il mart ayının 13-

də "Nicat" Cəmiyyəti tərəfindən keçirilmişdir [14, s. 34-35]. Bakıdan sonra Şuşa, Gəncə, Şəki və Tiflis şəhərlə-rində də "Şərq gecələri" keçirilmişdi. Artıq XX əsrin iyirminci illərindən etibarən bu gecələr müəyyən bir sənətkarın yaradıcılığına həsr olunan ədəbi-musiqili gecədən ibarət olurdu. Bakıda keçirilən "Şərq gecələri"nə bir qism aşıqlar kimi, Aşıq Abbasqulu da dəvət olunurdu. Belə ki,1915-ci il mart ayının 13-də Bakıda keçirilən "Şərq gecəsi"ndə Məşədi Zeynal, Şəkili Ələsgər, Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski ilə birlikdə Aşıq Abbasqulu da iştirak etmişdi. O, 1930-31ci ildə Ağdam, Şuşa şəhərlərində verilən "Şərq konsert"lərində məşhur xanəndələr və görkəmli çalğıçılarla çıxışlar etmişdi. 1931-ci ilin yazında konsert vermək üçün Bakıya dəvət olunmuşdu [14, s. 105]. Aşıq Abbasqulu yorulmaz bir mədəniyyət xadimi idi. İfa etdiyi el havalarında insanları mərd, cəsarətli və vətənpərvər olmağa çağırırdı. Ömrünün 50 ilini öz aşıq dostları kimi xalq yaradıcılığının təbliğinə və Azərbaycan milli musiqisinin zənginləşməsinə həsr etmişdi.

1920-ci ildən etibarən Azərbaycan incəsənətinin inkişafında yeni dövr başlayır. Xalqın arzu və istəkləri əsasən aşıq nəğmələrində öz əksini tapmışdı. Musiqi alətləri olan saz, tar, tütək, balaban, kamança və s. xalqın içərisində özünə daha geniş yer tapırdı. Bayatılar, şikəstələr və mahnılar aşıqlar vasitəsi ilə el tədbirlərində səslənməklə Azərbaycan incəsənətinin inkişafına kömək edir və onu daha da zənginləşdirirdi. 1918-1920-ci illərdə Bakıda təntənəli "Azərbaycan gecələri" konserti təşkil olunurdu. Bu gecələr əslən Tərtər nahiyəsindən olan Behbudağa Cavanşirin adı ilə bağlı idi [5, s. 67].

Ölkəmizin mədəni inkişafı, qeyri-maddi mədəni irsinin zənginliyi bir daha göstərir ki, Azərbaycan xalqı bütün dövrlərdə aşıq və xanəndəlik sənətini məhəbbətlə yaşatmış və ona ehtiram göstərmişdir. Ən əsası Azərbaycan aşıq sənətinin, onun ayrılmaz hissəsi olan xanəndəlik sənətinin inkişafına, qeyd etdiyimiz kimi, XIX əsrin sonları, XX əsrin əvvəllərində Şuşada, Şamaxıda, Bakıda fəaliyyət göstərən musiqi məclislərinin və Şərq konsertlərinin böyük təsiri olmuşdu. Aşıqlar xalq yaradıcılığını təbliğ etdikləri kimi, xanəndələr də xalqın mənəvi aləminin ifadəsi olan xalq musiqisini, muğam sənətini təbliğ etmək, yaşatmaq və qoruyub saxlamaq kimi mühüm bir missiyanı yerinə yetirmişlər. XX əsrdən başlayaraq aşıqlar və xanəndələr getdikcə bir-birlərinə daha yaxın olmuş və Azərbaycan xalq yaradıcılığını birlikdə təbliğ etmişlər. Bu baxımdan Azərbaycan musiqi mədəniyyətinin inkişaf tarixində bir çox görkəmli xanəndələrin də adları dərin iz salmışdı. Bu xanəndələr musiqi sənətinin bir çox janrlarının inkişafında aparıcı qüvvə olmuşlar. Bunların nəticəsidir ki, xalqımızın içərisindən öz məlahətli səsləri və peşəkar sənətkarlıq bacarıqları ilə Qafqazda, Yaxın və Orta Şərqdə tanınan Hacı Hüsü, Məşədi İsi, Səttar, Əbdülhəsən xan İqbal, Keştazlı Həşim, Ala Palaz oğlu, Molla Rza, Əbdülbaqi Zülalov, Cabbar Qaryağdı oğlu, Şahnaz Abbas, Keçəçi oğlu Məhəmməd Həsənçə, Şəkili Ələsgər, Mirzə Məhəmmədhəsən, Malıbəyli Həmid, Zabul Qasım, Segah İslam, Məşədi Məmməd Fərzəliyev, Bülbül, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Xan Şuşinski kimi məşhur xanəndələr çıxmışlar [14, s. 14-15].

Bütün bu xanəndələr həm də Azərbaycanda muğam musiqisi məktəbini yaratmışlar. Görülən işlərin davamı və muğamımızı inkişaf etdirmək naminə 1923-cü ildə türk musiqi texnikumu nəzdində xalq musiqisinə, xüsusilə muğamata dərindən bələd olan xanəndə və musiqiçilərdən ibarət "Muğamat komissiyonu" adlanan Elmi Şura təşkil olunmuşdu. Şuraya sədrlik etmək Ü. Hacıbəyliyə tapşırılmışdı. Şuranın daimi üzvləri: Cabbar Qaryağdı oğlu, Mirzə Fərəc, Səlyanlı Şirin, Qurban Pirimov, Mirzə Mənsur idi. Həmin komissiyonun texniki katibliyi isə 16 yaşlı Əfrasiyab Bədəlbəyliyə həvalə olunmuşdu [2, v. 18].

XX əsrin seçilən xanəndələrdən biri Cabbar Qaryağdı oğlu idi. O, 50 ildən artıq bir dövrdə topladığı 270-dən çox xalq mahnısını və musiqi parçalarını Azərbaycan Dövlət Konservatoriyasının Elmi-Tədqiqat Kabinəsinə verərək, Azərbaycan xalq musiqisi fondunu zənginləşdirmişdir. Onun 30-dan çox mahnısı görkəmli bəstəkarlarımız Üzeyir Hacıbəyli və Müslüm Maqomayev tərəfindən nota salınmışdı O, keçmiş xanəndələrdən fərqli olaraq, Nizaminin, Füzulinin, Zakirin, Vaqifin, Seyid Əzim

Şirvaninin və Natəvanın şerlərindən istifadə edib, fars təsniflərinin əvəzinə Azər-baycan dilində təsniflər oxumağa başlamışdır [14, s. 145, 150]. Cabbar Qaryağdı oğlu ilə birlikdə Şəkili Ələsgər və Qurban Pirimov Bakının yay klublarında "Şərq musiqisi gecələri"ndə çalıb-çağırmış, həmişə xalqın içərisində olmuşlar.

Azərbaycan musiqi mədəniyyəti tarixinə xalq xanəndəsi kimi daxil olanlardan biri də Seyid Şuşinski idi. O, klassik Şərq və Azərbaycan muğamlarının incəliklərinə dərindən bələd olan sənətkarlardan idi. Seyid Şuşinski fədakar və zəhmətsevər sənətkarlar şurasında özünə şərəfli mövqe qazanmış, musiqi mədəniyyəti tarixinə xanəndələrin böyük ustadı kimi daxil olmuşdur.

Azərbaycan musiqi incəsənətinin inkişaf tarixinə nəzər saldıqda bir daha yəqin edilir ki, Azərbaycan mədəniyyətinin, o cümlədən xanəndəlik sənətinin inkişafında muğam musiqisinin xüsusi yeri olmuşdur. Belə ki, Azərbaycan musiqisi öz milli zəmini üzərində inkişaf etmişdir. Bununla birlikdə Azərbaycan musiqisi həmdə qabaqcıl dünya mədəniyyətinin dəyərli çalarlarından da bəhrələnmiş, inkişaf edərək müasir səviyyəyə çatmışdır. Xanəndələr xalq arasında olmuş, milli musiqimizi təbliğ etmiş, yaşatmış və qoruyub saxlamışlar. Xanəndəlik sənətinin inkişaf tarixi göstərir ki, Azərbaycan xanəndəlik sənətinin inkişafı aşıq sənəti ilə əlaqəli inkişaf etdiyi kimi, xanəndəlik sənəti də muğam musiqisi ilə əlaqəli şəkildə inkişaf edərək zənginləşmişdi. Muğam musiqisi sırf xalq yaradıcılığından ibarət olduğu üçün bu musiqi min illər boyu nəsldən-nəslə keçərək zəngin irs yaratmışdır. Muğamat musiqimizin bünövrəsi və dayağıdır. Yüzillərdən bəri xalqımızın yaratdığı mahnılar, təsniflər və oyun havaları muğamat üzərində formalaşmışdır.

Qədim keçmişlə bağlı olan muğamatın harada, nə vaxt və kim tərəfindən yaradıldığını konkret şəkildə demək çətindir. Ona görə ki, muğam musiqisi bir xalqa məxsus deyil, bir sıra xalqların da mədəniyyətinə aiddir. Bu baxımdan türk, fars, ərəb, hind və başqa xalqların musiqisinin inkişafında muğamat bilavasitə əsas rol oynamışdır. Ancaq muğamların meydana gəlməsi, təşəkkülü və inkişafı prosesi eyni olmamış, hər ölkədə spesfik milli xüsusiyyətlərə malik olmuşdur. Musiqi aləmində öz ahəngləri, rəngləri və ifaçılıq yolları ilə seçilən Azərbaycan muğamları xalqın arzuları və düşüncələri ilə sıx bağlı olmuşdur. Muğamat opera və baletlərin, hətta simfonik əsərlərin də tükənməz çeşməsidir. Məhz buna görə də xalqımız böyükdən-kiçiyə onu sevir. Keçən dövr ərzində muğam ən qiymətli sərvət kimi mühafizə olunmuş, qorunub saxlanmışdır. Azərbaycan musiqisi tarixində muğamların əhəmiyyətindən bəhs edərkən, Ü.Hacıbəyov yazırdı: "Muğamat keçmiş dövrlərdən bəri şərqin, xüsusilə Azərbaycanın klassik musiqi yaradıcılıq nümunəsi kimi tanınmışdır" [8]. Ü. Hacıbəyli muğamatı yüksək qiymətləndirir, böyük inamın dolğun ifadəsini görürdü. O yazırdı: "Mən "Koroğlu" operasını bir qədər sərbəst stildə yazmışam. Təcrübə göstərdi ki, opera bütünlüklə geniş tamaşaçı kütlələrinə çata bilmişdir və bunun səbəbi də operanı yazarkən onun musiqi mətnində və həmçinin yaradıcılıq fantaziyamda muğam sistemini əsas götürməyim olmuşdur" [6, s. 112]. Dahi Bülbül də muğamların inkişafını xanəndəlik sənəti ilə əlaqələndirirdi. O, düzgün olaraq deyirdi ki, Azərbaycan klassik muğam-larının inkişaf tarixi onların ifaçıları ilə sıx əlaqədardır. Fasiləsiz olaraq saat yarım, iki saat uzanan oxumaları yaradan müğənnilər ancaq Azərbaycanda olmuşdur. Səttar, Cabbar Qaryağdı oğlu, Şəkili Ələsgər, Əbdülbağı, Seyid Şuşinski, məhz belə xanəndələr olmuşlar.

Azərbaycan muğamlarını məharətlə ifa etməklə xanəndələr emprik yollarla əsrdən-əsrə keçən zəmanələrin sınaqlarından çıxıb gələn orjinal oxumaq məktəbi yaratmışlar. Muğamları nəsldən-nəslə çatdıran, onlara yeni-yeni guşələr və xallar əlavə edib zənginləşdirən xanəndələr olmuşdu [13, s. 117]. Qədim zamanlardan el aşığını və xanəndələri xalqımız böyük məhəbbətlə sevmiş, onlara həmişə hörmət göstərmişlər.

Aparılan tədqiqatlar göstərir ki, xanəndəlik sənəti orta əsrlərdə şəhərlərin inkişafı ilə ələqədar meydana gəlmişdir. O zamanlar xanəndələr əsasən şəhər əyanlarının düzəltdikləri ziyafətlərdə, toy şənliklərində və yarmarkalarda çıxış etmişlər. Xanəndələr əsasən fars dilində yazılmış qəzəlləri və

təsnifləri oxuduqlarına görə kəndlilər xanəndələri öz məclislərinə dəvət etməzdi. Kənd məclislərinin yaraşığı ya aşıqlar, ya da zurnaçılar dəstəsi olurdu. XX əsrin əvvəllərinə qədər varlı ailələr xanəndələri, ortabab və şəhər yoxsulları isə zurnaçılar dəstəsini, kənd əhli isə aşıqları öz şənliklərinə dəvət edirdilər. Lakin böyük toylara həm xanəndə, həm də aşıq dəstəsi çağırar və növbə ilə oxudardılar [7, s. 217].

Getdikcə Azərbaycan xalqının ictimai-siyasi həyatında yaranmış dönüş, ədəbiyyat və incəsənətdə yaranan yeni motivlər xanəndəlik sənətini xalqa daha da yaxınlaşdırdı. Kənd toylarında, məclislərində xanəndə də xalqın sevimlisi oldu. C. Qaryağdı oğlundan sonra bu təşəbbüsə Malıbəyli Həmid, Qasım, Şəkili Ələsgər, Islam Abdullayev və Seyid Şuşinski kimi sənətkarlar qoşulurdular. Onlar xalq kütlələri arasında artıq fars təsnifləri deyil, Azərbaycan dilində təsniflər oxuyurdular. Beləliklə aşıq sənəti öz ədəbi qidasını zəngin xalq şerindən alırdısa, xanəndə sənətinin ədəbi mənbəyi klassik Azərbaycan şeri, xüsusilə qəzəli idi. Xanəndələr xalq mahnılarından geniş şəkildə istifadə edirdilər.

Musiqi mədəniyyətinin inkişafında, klassik xanəndələrimizin böyük xidmətləri olmuşdur. Təsadüfü deyil ki, Azərbaycan xalqının icərisindən öz məlahətli səsi və sənətkarlıq bacarıqları ilə Qafqazda, yaxın və Orta Şərqdə məşhur olan xanəndələr çıxmışlar [11, s. 144]. XIX əsrin ikinci yarısında xanəndəlik sənətinin inkişafı özünü açıq şəkildə göstərirdi. Ancaq xanəndələrin tərkibi eyni deyildi. Saray xanəndələrindən, yəni varlılara xidmət edən müğənnilərdən başqa "gəzəyən xanəndələr" də var idi. Gəzəyən xanəndələrin əksəriyyəti Tiflis, Şamaxı və Şuşa şəhərlərinin iri küçələrində, bazar və ticarət meydanlarında, həm də şəhər sənətkarlarının və xırda tacirlərin məclislərində çalıb-çağırırdılar.

XIX əsrin ortalarından xanəndə sənəti ilə əlaqədar olaraq kaman, tar musiqi alətləri də təkmilləşir, yeni ifa üsulları meydana çıxır. Sadıqcan tara 6 sim əlavə etmiş, artıq pərdələri atmış, onu döşü üzərində çalmışdır. Bununla yanaşı XX əsrin əvvəllərində Azərbaycanda nəzərə çarpan tərəqqi Bakı, Şuşa, Gəncə və s şəhərlərdə vəziyyəti dəyişir. Ziyafət məclislərinin artması xanən-dələr arasında təbəqələşməyə səbəb olur. Şəhərlərdəki məclis və toylar dörd yerə bölünür. 1-Ürəfa məclisləri, 2-Əsnaf toyu, 3-Lotu toyları, 4-Erməni toyları, müxtəlif qonaqlıqlar və keyf məclisləri [14, s. 21]. Ürəfa məclislərinə seçilən, yüksək səviyyəli xanəndələr dəvət olunurdu. Bu məclislərdə muğamatı dərindən bilənlər (əsilzadələr) iştirak edirdilər. Əsnaf toylarında müğənniyə güzəşt olunur dəsgah oxunandan sonra el havası çaldırıb az adamın oynamasına icazə verilirdi. Bu məclislərə nisbətən zəif xanəndələr dəvət olunurdu. "Lotu toyları"nda sadəcə olaraq pul yığılırdı. Bu toylara 2-3 xanəndə və bir zurnaçı dəstəsi çağırılırdı. Dəsgah oxumağa vaxt qalmırdı. Belə toylar ən çox Bakıda olurdu. Erməni toylarında isə çalanlar erməni musiqiçiləri olsa da Azərbay-canlı xanəndələr oxuyurdular. Bu toyların olduğunu etiraf edən Üzeyir Hacıbəyli yazırdı: "erməni və gürcülərdən Azərbaycan musiqisini özlərinə sənət edənlər çoxdur" [7, s. 224].

Təəssüflər olsun ki, kökü yüzilliklərin dərinliklərindən gələn, zəngin musiqi, söz repertuarına, teatral keyfiyyətlərə malik olan, dilimizin, ruhumuzun qorunmasında, milli dövlətçilik düşüncəsinin daşınmasında, yurdsevərlik duyğularının aşılanmasında mühüm rol oynayan ozan-aşıq sənəti XX əsrin 20-ci illərindən etibarən öz tarixi statusu və missiyasından uzaqlaşdırılaraq tənəzzülə doğru getməyə başladı. Haqqın nuruna, ilahi aləmin mənəvi ucalığına bağlı olan aşıqlıq sənəti, kolxoz quruculuğunu və qondarma sosializm yenidənqurmalarının tərif edilməsi səviyyəsinə endirildi. Onun xalq içərisindəki nüfuzu tədricən aşağı düşdü. Aşıqlara Lenini, Stalini, Kommunist Partiyasını, Moskvanı, təbliğ və tərif etmək kimi idoloji istiqamət verilməsi də öz işini gördü. Bu kimi hallara qarşı etiraz edənlərdən Mirzə Bilal, Borsunlu Məzahir, Mikayıl Azaflı, Naxçıvanlı Fətullah kimi saz-söz sənətkarları repressiyaya, mənəvi təzyiqlərə məruz qaldılar və yaxud fəaliyyətlərinə qadağa qoyuldu. I, II və III Aşıqlar Qurultaylarının materiallarından da göründüyü kimi, mövcud sosializm quruluşu yeni cəmiyyətin ideoloji təbliğatçısı rolunu oynayan - sovet aşığı yaratmağa canı dildən çalışmışdı. O da qeyd olunmalıdır ki, Sovet hakimiyyəti illərində fəaliyyətləri leninin, Stalinin və sovet ideologiyasının təbliğinə istiqamətləndirilməklə aşığın tarixi statusu aşağılanmış, bu ezazkar

sənətin təbliği, öyrədilməsi və inkişaf etdirilməsi ilə bağlı, demək olar ki, rəsmi bir iş görülməmişdir. Yalnız bir məqamı demək kifayət edər ki, musiqimizin məbədgahı olan, keçmiş Azərbaycan Dövlət Konservatoriyasında keçirilən tədbirlərdə saz aşıqları iştirak etməmiş və milli musiqimiz olan saz tədris prosesinə cəlb edilməmişdir. Radio və Televiziya proqramlarında isə aşıq yaradıcılığı, qısa zamanda "Aşıq musiqisi həvəskarları üçün konsertimizə başlayırıq" adı ilə təqdim olunmuşdu. Milli musiqi mədəniyyətimizin əsası, xalq yaradıcılığının birbaşa təbliğatçısı olan sazı və aşıq musiqisini ancaq bir qrup həvəskar üçün bir neçə dəqiqə nəzərdə tutulması ona olan münasibətin nəticəsi idi.

Amma 1920-ci illərdən başlayan siyasi-ideoloji təpkilərə baxmayaraq incəsənətin əsas sahələrindən biri olan aşıq və xanəndəlik sənəti çətinliklə də olsa, inkişaf etmişdi. Bu sahədə zənginliyi ilə seçilən xalq yaradıçılığı, aşıq və xanəndəlik sənətinin milli ruhda inkişafına kömək göstərirdi. Aşıqlar və xanəndələr isə öz növbəsində xalq yaradıcılığını təbliğ etməklə, musiqi incəsənətini inkişafına səbəb olmuşlar. Azərbaycan aşıqları və xanəndələri toy-düyünlərdə xalqın dilindən süzülən inciləri təbliğ edilməklə yanaşı, həm də milli Azərbaycan mədəniyyətini günümüzədək inkişaf etdirmişlər.

Qarabağ, Şirvan, Qazax, Naxçıvan bölgələrində, Laçın, Kəlbəcər, Tovuz, Gədəbəy və başqa rayonlarda olan aşıqlar yeni həyat haqqında nəğmələr qoşur və el tədbirlərində səsləndirirdilər. Aşıqlardan Ələsgər, M. Bayramov, H. Bozalqanlı, Ə. Rzayev və başqaları [3, v. 218] həyat, əmək, məhəbbət gözəllik haqqında yeni mahnılarını oxuyurdular. Bunu Bakıda keçirilən birinci və ikinci aşıqlar qurultayları bir daha göstərdi. 1928-ci ildə Bakıda keçirilən Azərbaycan aşıqlarının birinci qurultayı xalq yaradıcılığının inkişafında mühüm rol oynadı [1, s. 346].

1938-ci il martın 13-də isə Bakıda Azərbaycan aşıqlarının ikinci qurultayı keçirildi [15, s. 58]. Ikinci aşıqlar qurultayında H. Sarabski, Ü. Hacıbəyli, S. Vurğun kimi dahi sənətkarlar, Azərbay-canın müxtəlif guşələrindən olan aşıqlar iştirak etmişlər. Görkəmli mədəniyyət xadimləri Ü. Hacıbəyli, M. Ibrahimov, Bülbül, H. Sarabski və O. Sarıvəlli əsas məruzə ilə qurultayda çıxış etmiş və aşıq yaradıcılığı haqqında böyük məhəbbətlə danışmışlar. Qurultayda aşıq sənətinin inkişaf etdirilməsindən, aşıqların savadlanması üçün təşkilati kömək göstəriməsindən, yeni dastanlar yazılmasından, sənətkarlığın inkişaf etdirilməsi yollarından və nöqsanlardan danışılmışdı.

Azərbaycan xalqının tarixinin, dilinin, mədəniyyətinin öyrənilməsində və təbliğində aşıq sənətinin bir daha necə əhəmiyyətli rol oynadığını Bülbülün qurultaydakı çıxışından daha aydın görmək olar. O göstərirdi ki, aşıq mahnıları xalqın yaradıcılığından və əməyindən doğmuşdur. Qarabağda, Qazaxda, və Lənkəranda çalınan havalardan danışmış, 70-ə qədər havanın adını çək-mişdir. Göstərmişdir ki, bu adlar içərisində bir dənə də olsun fars, ərəb adına təsadüf etməzsiniz. Hamısı Azərbaycan adlarıdır. Bu o deməkdir ki, bizim musiqi eldən bəhrələnir [4, v. 119]. Mən xanəndələri sevirəm, özümdə xanəndəyəm. Amma aşıqları xanəndələrdən çox sevirəm. Ona görə ki, onlar məktəb oxumadan, heç bir məktəb keçmədən, xalqın içərisindən çıxıb, xalqı daha yaxşı ifadə edirlər [4, v. 123]. Bütün bunlara və keçilən yola əsaslanaraq demək olar ki, aşıqlar fəaliyyətləri boyu xalq yaradıcılığından bəhrələnmiş və xalqın əsas təbliğatçısı olmuşlar. Aşıqlar olduqları məclislərdə çox vaxt deyişmə yarışı keçirmişlər. Onlar bir-birlərinə tapmaca və yaxud da bağlama deyərmişlər. Cavabı mütləq, eyni şeir formasında və eyni hava üstündə oxunaraq verilməsi vacib şərtimiş. Yarışan Aşıqlardan biri bu qaydaya əməl edə bilmədikdə, məğlub olunmuş hesab olunurmuş və sazını qalib gəlmiş aşığa verərmiş [16]. 1920-30-cu və sonrakı 50-ci illərdə Azərbaycanın müxtəlif bölgələrində keçirilən bu yönümlü aşıq gecələri, toy və düyünlər daha maraqlı olurmuş.

Azərbaycan aşıqların bir araya toplanaraq öz birliklərini yaratma tarixini izlədikdə görürük ki, "Azərbaycan Aşıqlar Birliyi" (AAB) ilk dəfə Hüseyn Arifin rəhbərliyi ilə 1982-ci ildə Ağstafa rayonunda yaradılmışdı. 19 iyun 1991-ci ildə "Azərbaycan Aşıqlar Birliyi" Mədəniyyət Nazirliyinin tərkibindən (tabeliyindən) çıxaraq, Ədliyyə Nazirliyində Dövlət Qeydiyyatına alınaraq Hüquqi şəxs kimi tanınmaqla, özünümaliyyələşdirmə prinsipi əsasında fəaliyyət göstərir. Yarandığı vaxtdan AAB-

i öz rəhbərliyi ilə aşıqlarımız Azərbaycanın rayonlarında və Bakı şəhərində keçirilən tədbirlərdə və el şənliklərində xalqa xidmət edirlər. İndiyə qədər AAB-nin V qurultayı keçirilmişdir. Belə ki, Azərbaycan Aşıqlarının I qurultayı - 5 may 1928-ci iildə, II qurultayı 12 mart 1938-ci ildə, III qurultayı 27 aprel 1961-ci ildə, IV qurultayı 19 mart 1984-cü ildə və V qurultayı isə 29 avqust 2008-ci ildə keçirilmişdir [17]. Qurultaylarda aşıqlar qarşısında mühm vəzifə olaraq xalqa xidmət qoyulmuşdu. Xalqa xidmətin bariz nümunəsi olaraq keçirilən tədbir-lərdə, bayram günlərində və el şənliklərində aşıqların iştirakını göstərmək olar. Görülən işlərdən biri kimi, 2012-ci ilin sentyabr ayından Azərbaycan Aşıqlar Birliyində (AAB) pulsuz saz kursunun fəaliyyətə başlanmasını da qeyd edə bilərik. Burada məşğələləri tanınmış saz ifaçısı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin dosenti Fəzail Miskinli və həmin universitetin məzunu, Bakıdakı Ş.Ələkbərova adına 20 saylı uşaq musiqi məktəbinin müəllimi Fariz Təmirov aparmışlar.

Azərbaycan Aşıqlar Birliyinin sədri; 1984 -1992-ci illərdə Hüseyn Arif, 12 oktyabr 1992ci ildən - 2004-cü ilə qədər İbrahimov Məcnun Səməd oğlu, 2004-2008-ci illərdə Qaracan Kərimli (Borçalı), 29 avqust 2008-ci ildən - 9 yanvar 2016-cı ilə qədər Zəlimxan Yaqub olmuş və 3 mart 2016-cı ildən hal-hazıra kimi professor Məhərrəm Qasımlı Azərbaycan Aşıqlar birliyinin sədridir.

Azərbaycan Aşıqlar Birliyinin I katibi Aşıq Altay Məmmədov və katibi isə Musa Nəbioğludur. Birliyin İdarə heyətinin üzvləri 34 nəfərdən ibarətdir [17].

Qədim mədəni irsə malik olan aşıq sənəti son dövrdə inkişaf etdirilərək dünya miqyasına qaldırılması Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və ISESCO-nun Xoşməramlı səfiri və Azərbaycanın birinci Vitse Prezidenti Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Mehriban xanımın fəaliyyəti ilə aşıq sənətinə yeni nəfəs verərək, Azərbaycan aşıq sənətinin beynəlxalq aləmdə təbliği, tanıdılması, qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi işinə xidmət edir. Bu işlərin nəticəsi olaraq göstərə bilərik ki, Azərbaycan Aşıq sənəti 2009-cu ilin 28 sentyabr-2 oktyabr tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Komitəsinin 4-cü sessiyası zamanı təşkilatın Qeyri-Maddi Mədəni İrsin Reprezentativ siyahısına daxil edilmişdir [18]. Bu hadisə aşıq sənətinin, ümumilikdə Azərbaycan musiqisinin inkişaf tarixinin çox qədimlərə getdiyini və Azərbaycan mədəni irsinin ən qədim nümunələrindən biri olduğunu beynəlxalq səviyyədə bir daha təsdiq etmişdi. Elə bu qədimliyin və zənginliyin nəticəsidir ki, YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına salınan qiymətli mədəniyyət, incəsənət və mənəviyyat nümunələrimiz Azərbaycanın dünyada əsas görüntüləridir deyə bilərik. Xalqımızın, dövlətimizin YUNESKO-da mədəni göstə-ricisi olan xalçalarımız, muğam, aşıq sənətimiz, musiqi alətlərimiz, ümumilikdə qədimliyimizi sübut edən möhtəşəm maddi və qeyri maddi mədəni nümunələrimizin hamısı, dövlətçilik tariximizin və mədəniyyətimizin dünyada danışan dilidir.

Elə bunların nəticəsidir ki, aşıq, xanəndəlik sənəti və muğam musiqisi XXI əsrdə Azər-baycan xalqının mədəni sərvətinə çevrilmişdir. Bu gün rahatlıqla deyə bilərik ki, Azərbaycanın zəngin muğam sənətini yaşadan görkəmli xanəndələr arasında Əlibaba Məmmədov, Ağabala Abdullayev, Yaqub Məmmədov, Süleyman Abdullayev, Sabir Mirzəyev, Ağaxan Abdullayev, Məmmədbağır Bağırzadə, Şövkət Ələkbərova, Tükəzban İsmayılova, Sara Qədimova, Zeynəb Xanlarova, Səkinə İsmayılova, Alim Qasımov, və digərləri xüsusi yer tuturlar. Bu sənətkarlar klassik muğamları və xalq mahnılarını yüksək ustalıqla ifa edərək, mədəni irsimizin qorunub saxlanılmasında və dünyada tanıdılmasında böyük xidmətlər göstərmişlər.

Klassik muğamlarımızı və xalq mahnılarımızı yüksək ustalıqla ifa edən korifey sənətkar-larımızla yanaşı, müasir Azərbaycan musiqisində xanəndəlik, muğam sənətini yaşadan və populyarlaşdıran istedadlı xanəndələrimiz həm ənənəvi ifaçılığı, həm də yenilikçi yanaşmaları ilə seçilirlər. Bu sənətkarlar arasında da Səxavət Məmmədov, Məhəbbət Kazımov, Mənsum İbrahimov, Cabir

Abdullayev, Zabit Nəbizadə, Təyyar Bayramov, Ehtiram Hüseynov, Babək Niftəliyev, İlkin Əhmədov, Güllü Muradova, Aytən Məhərrəmova, Elnur Zeynalov, Mirələm Mirələmov, Səbuhi İbaye, Səbinə Ərəbli,və başqaları fərqlənirlər.

Azərbaycan musiqisinin və onun janrlarının inkişafına baxmayaraq, aşıqların problemləri 1980-ci illərdən başlayaraq gündəliyə çıxarılmışd. 1984-cü ildə Hüseyn Arifin təşəbbüsü və fədakarlığı sayəsində "Aşıqlar Birliyi", "Aşıq Pəri məclisi" kimi yaradıcılıq təşkilatlarının yaranması, "Bulaq" və "Ozan" radio-televiziya verilişlərinin fəaliyyətə başlaması işi bu sahədə canlanma yaratmışdı. Belə ki, başlanan bu proses Hüseyn Saraclı, Əmrah Gülməmmədov, Kamandar Əfəndiyev, Şakir Hacıyev, Pənah Pənahov, Əkbər Cəfərov, İmran Həsənov, Ədalət Nəsibov və başqa istedadlı aşıqların Azərbaycanın ictimai-mədəni həyatında fəal yer almasına əhəmiyyətli təkan vermişdi. Eyni zamanda qadın aşıqlarının Azərbaycan aşıq sənətinin mühüm bir qoluna çevrilməsində "Aşıq Pəri məclisi"nin rolunu xüsusilə qeyd etmək yerinə düşər. Başlanan uğurlu fəaliyyətin nəticəsi olaraq bu gün Ulduz Quliyeva, Solmaz Kosayeva, Gülarə Azaflı, Zülfiyyə İbadova, Samirə Əliyeva, Telli Borçalı, Lətifə Çeşməli, Kəmalə Qubadlı və başqa onlarla istedadlı saz-söz ifaçıları Azərbaycan aşıq sənətini məharətlə inkişaf etdirirlər.

Aşıq sənətinə olan biganə münasibətə və çətinliklərə baxmayaraq 1970-1990-cı illərdə Azərbaycan aşıq sənəti Göyçə, Kəlbəcər, Laçın, Şirvan, Borçalı, Gəncəbasar bölgələrində aşıqlar tərəfindən, tarixi ənənə kimi ləyaqətlə davam etdirilmişdi. Bunlardan Aşıq Şakiri, Aşıq Əkbəri, Aşıq Kamandarı, Ədalət Nəsibovu, laçınlı Aşıq Umbayı, Aşıq Cabbarı və b. göstərmək olar. Bu illərdə həm də Əmrah Gülməmmədov, Ədalət Nəsibov, Xanlar Məhərrəmov, Əli Quliyev, Gülabı Xındı Məmmədoğlu kimi istedadlı sənətkarların solo saz ifaçılığını sənətin xüsusi bir qolu kimi formalaşdırmaları, saz ifaçılığının keyfiyyətcə yüksəlməsinə, improvizə baxımından zənginləş-məsinə və ayrıca solo-saz ifaçıları nəslinin yaranmasına səbəb olmuşdur [12]. Bu gün həmin ənənə əsasında Ədalət Dəlidağlı, Fəzail Miskinli, Nemət Qasımlı, Mübariz Əliyev, İlqar İmamverdiyev və başqa istedadlı ifaçılar tədris işini uğurla həyata keçirməkdədirlər.

Hazırda aşıq sənətinin tədrisi işi əvvəlki dönəmlərlə müqayisədə müəyyən qədər yaxşılaşmışdı. Belə ki, Gədəbəy, Kəlbəcər, Laçın və Borçalı aşıqları tarixi ənənəni ləyaqətlə davam etdirirlər. Gəncə, Tovuz, Şamaxı, Salyan, Şəmkir, Quba, bölgələrində də aşıqlar fəaliyyət göstərməkdədirlər. Naxçıvan, Lənkəran, Astarada aşıqların say artmış və hətta aşıq ansamblları da təşkil olunmuşdur. Gədəbəydə aşıq təşkilatının qurulması və istedadlı saz-söz ustalarının, eləcə də gənclərin vahid bir mərkəzdə birləşməsi istiqamətində İsfəndiyar Rüstəmovun, məcburi köçkünlük ucbatından dağınıq hala gəlmiş Kəlbəcər aşıqlarının sənət və məişət həyatına həssas münasibət bəslənilməsində, Kəlbəcər rayon mədəniyyət şöbəsinin müdiri Saday Musayevin fəaliyyətləri [12] təqdirə layiqdir.

Aşıq sənətinin tədqiqi, təbliği, nəşri sahəsində indiyə qədər həyata keçirilmiş tədbirlər, elmi və təşkilati fəaliyyətlər keyfiyyətcə yeni mərhələyə keçmişdir. AzTV, İTV, Space telekanallarının, radioların, qəzet və jurnalların son illərdə saz-söz sənəti ilə bağlı xeyli təbliğati işlər görmələri ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmaqdadır. Eyni zamanda "Ozan - aşıq müsabiqə"lərinin təşkili də sazsevərlərin ürəyincə olmuşdur. Bu gün ölkəmizdə dörd yüzə, dünyada isə təqribən üç minə yaxın Azərbaycan aşığı saz-söz sənəti ilə məşğuldur (12).

Aşıq sənətinin qorunması, onun inkişaf etdirilməsi və gənc nəslə öyrədilməsi işində ustad sənətkarların üzərinə böyük məsuliyyət düşür. Yaxşı olar ki, hər bölgədə olan ustad aşıqların bilik və bacarığından istifadə edilsin. Son illərdə aşıq sənətinə gəlmiş Altay Məmmədli, Azər Alıyev, Ağamurad İsrafilov, Dəmir Vəliyev, Qələndər Zeynalov, Ramin Qarayev, Şöhrət Kərimov, Elbrus Hüseynov, Yaşar Gülümcanov, Firudin Hüseynov, İlham Əsgəroğlu, Namik Fərhadoğlu, Əli Tapdıqoğlu, İlham Aslanbəyli, Mehdi Məsimov, Könül Bayramova, Günel Qurbanova, Rəfiqə Göyçəli, Familə İsgəndərova, Elməddin Məmmədov, Elvin Axundov kimi istedadlı gənclərin daha

da püxtələşməsinə həm ustadlar, həm də dövlət səviyyəsində diqqət və qayğı göstərilsin. Aşıqların, xanəndələrin və muğam ustalarının sənətinə, məişət həyatına, və yaradıcılıq fəaliyyətlərinə qayğı göstərilməsi həm də onlar üçün bir motivasiya olardı.

Nəticə. Sovet hakimiyyəti illərində olduğu kimi, XX əsrin sonlarında da Azərbaycan musiqisinə, xalq yaradıcılığına və muğamlarımıza sanki bir biganəlik yaranmış, onun assimlyasiya olunma təhlükəsi ortaya çıxmışdı. Ölkəmizdə aparılan uğurlu siyasət, Azərbaycan mədəniyyətinə göstərilən dövlət qayğısı, Qeyri-maddi mədəni irsin qorunmasında və təbliğində həlledici rol oynamışdı. Azərbaycanda aşıq, xanəndəlik və muğam sənətinə olan sönük və biganə münasibətin aradan qaldırılmasında UNESKO və ISESKO nun xoş məramlı səfiri, Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycan Prezidentinin birinci vitse Prezidenti, Mehriban xanım Əliyevanın göstərdiyi tarixi xidmətləri, bu günədək keçirilən 9 muğam müsabiqələri mədəni sərvətlərimizin qorunmasında, təbliğində, milli musiqimizə, aşıq sənətinə, muğamımıza və ümumilikdə Qeyri-maddi mədəni irsimizə olan biganə münasibətin aradan qaldırılmasında həlledici rol oynamışdı. Aparılan dövlət siyasətinin, və göstərilən səylərin sayəsində qeyri-maddi mədəni irsimizin həm də UNESKO-nun siyahisina salınması istqamətində yeni mərhələ başlamışdı. Artıq Azərbaycanda saz-söz sənətinə yüksək səviyyədə dəyər verilir. Aşıq sənəti uşaq musiqi məktəblərində, musiqi və incəsənət kolleclərində, Azərbaycan Milli Musiqi Akademiya-sında, Mədəniyyət və İncəsənət Universitetində tədris olunur. Respublikamızda keçirilən aşıq müsabiqələri, beynəlxalq aşıq festivalları gənc nəsil aşıq ifaçılarının yetişməsi üçün böyük imkanlar yaratmışdır. Son illər ölkəmizin mədəni həyatında baş verən yeniliklər milli-mənəvi dəyərlərə hörmət və diqqət xalq kütlələrinin dərin rəğbətini qazanmışdır. Milli-mənəvi dəyərlərə göstərilən qayğı dövlət siyasətinin başlıca prinsiplərindən biri olmuşdur.

Ədəbiyyat:

1. Azərbaycan tarixi. – 7 cilddə. – VI cild (aprel 1920 – iyun 1941). – Bakı: Elm, 2000. – 568.
2. Azərbaycan SSR Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi (ARDSPIHA). – f. 69, siy. 1, iş 63.
3. Azərbaycan SSR Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi (ARDSPIHA). – f. 69, siy. 1, iş 64.
4. Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivi (ARDƏİA). – f. 34, siy. 1, iş 12.
5. Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918–1920). – Bakı: Gənclik, 1990. – 96 s.
6. Hacıbəyov Ü. Musiqidə xalqçılıq // İnqilab və mədəniyyət. – 1939. – № 5.
7. Hacıbəyov Ü. Azərbaycan musiqi həyatına bir nəzər // Əsərləri. – 2 cilddə. – Bakı, 1965.
8. Kommunist qəzeti. – 1936. – 15 avqust. – № 188.
9. Kaspi qəzeti. – 1902. – 13 yanvar.
10. Kaspi qəzeti. – 1902. – 25 yanvar.
11. Qasımov Ş. M. Azərbaycan SSR yaradıcılıq ittifaqlarının yaranması və fəaliyyəti (1920-30-cu illər). – Bakı, 2007.
12. Qasımlı M. Aşıq sənətinin müasir vəziyyəti, problemləri və inkişaf perspektivləri // Mədəniyyət qəzeti. – 2010. – 7 iyul.
13. Məmmədova A. Bülbül. – Bakı, 1967.
14. Şuşinski F. Azərbaycan xalq musiqiçiləri. – Bakı, 1985. – 480 s.
15. История Азербайджана. – В 3-х т. – Т. II. – Баку: Изд-во АН Азерб. ССР, – 1960. – 953 с.
16. Azərbaycan musiqi dünyası [Elektron resurs]. – URL: https://enene.musigi-dunya.az/
17. Vikipediya [Elektron resurs]. – URL: https://az.wikipedia.org/
18. YUNESKO Azərbaycan (Preslib) [Elektron resurs]. – URL: https://YUNESKO.preslib.az/az/

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300